# MÜQAYİSƏLİ TƏHLİL ƏSASINDA AZƏRBAYCANDA SOSİAL İŞİN TƏDRİSİNƏ DAİR RƏY YAZISI




2022

# MÜQAYİSƏLİ TƏHLİL ƏSASINDA AZƏRBAYCANDA SOSİAL İŞİN TƏDRİSİNƏ DAİR RƏY YAZISI

**Müəlliflər: Nargilə Rzayeva və Nəzrin Nadirova**

**Baku - 2022**

# Mündəricat

1. GİRİŞ ........................................ 4
2. AZƏRBAYCAN VƏ ABŞ BAKALAVR SOSİAL İŞ KURİKULUMLARININ MÜQAYİSƏLİ TƏHLİLİ ........................................ 5
3. MÖVCUD OLAN ÇATIŞMAZLIQLAR VƏ TÖVSİYƏLƏR ........................................ 7
4. ƏDƏBİYYAT SİYAHISI ........................................ 8

# 1. GİRİŞ

Azərbaycanda sosial işin təşkilinin tədrisinə 2005-ci ildə Bakı Dövlət Universitetində magistr dərəcəsi (və ya magistratura pilləsi) üzrə başlanılıb. (UAFA, 2018). Daha sonra 2009-cu ildə Azərbaycan Universitetində Sosial iş kafedrası açılıb və Sosial işin tədrisinə bakalavr təhsili ilə başlanılıb. (UAFA, 2018) Hazırda 17 ali məktəbdə[1] və başqa təhsil müəssisələrində uyğun təhsil ocağının tələbləri əsasında və müxtəlif səviyyələrdə sosial iş tədris olunur.

Azərbaycanda Sosial işi tənzimləyən əsas qanun 2011-ci ildə qəbul edilmiş "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının qanunudur.[2]

Sosial xidmət haqqında qanuna əsasən:

*Sosial xidmət - çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial problemlərinin aradan qaldırılması və ictimai həyatda başqalarıyla bərabər iştirak imkanlarının yaradılması istiqamətində həyata keçirilən kompleks tədbirlər sistemini özündə birləşdirir.*

*sosial işçi - bu Qanunla müəyyən olunmuş qaydada sosial xidmətə olan tələbatı qiymətləndirən və müəyyən edən, eləcə də sosial xidmət göstərən şəxs.*

Qanunun 14-cü maddəsinə əsasən, *ali təhsili və uyğun peşə hazırlığı olan şəxslər* sosial işçi qismində çalışa bilərlər. Bu o deməkdir ki, sosial işçi olmaq üçün mütləq sosial iş ixtisası üzrə bakalavr təhsili almaq gərəkdir. Bakalavr təhsilini isə ali məktəblər tədris edir.

Sosial iş ixtisasının tədrisi nəticəsində tələbələr cəmiyyətin müasir problemlərinin öhdəsindən necə gəlməyi, çətin həyat şəraitində olan insanlara kömək etməyi öyrənirlər. İxtisasın tədrisinin vacibliyinin əsas göstəricisi müasir dövrdə sosial problemlərin çoxluğu və insanların bu problemlərin öhdəsindən gələ bilməkdə çətinlik çəkməsidir. Bu problemlərin aradan qaldırılması üçün professional dəstəyə, yəni peşəkar sosial işçilərin köməyinə ehtiyac var.

[1] Ibid.
[2] https://e-qanun.az/framework/23195

# 2. AZƏRBAYCAN VƏ ABŞ BAKALAVR SOSİAL İŞ KURİKULUMLARININ MÜQAYİSƏLİ TƏHLİLİ

Azərbaycanda Azərbaycan Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Turizm və Menecment Universitetində sosial iş üzrə tədris aparılır.

Azərbaycan Turizm və Menecment Universitetində sosial iş kurikulumlarını nəzərdən keçirdiyimiz zaman ixtisas növü üzrə 25 fənn, ümumi fənn üzrə 19, təcrübə əsaslı 3 fənn tədris olunur. Kateqoriyalara böldükdə isə ixtisas inkişafı ilə bağlı 25 fənn, ixtisasla bağlı başqa bilik və bacarıqların inkişaf etdirilməsi üçün 14 fənn, ixtisasla bağlı təcrübə əsaslı öyrənmə üzrə 3 fənn, təhsil siyasəti baxımından zəruri bilinən 5 fənn tədris olunur. Bu statistik göstəricilər üzrə ixtisasla bağlı kurikulum fənlərinə üstünlük verildiyi və təcrübə əsaslı fənlərin nəzəri fənlərdən çox az olması müşahidə edilir. Azərbaycan Turizm və Menecment Universitetində sosial iş kurikulumlarını sosial işi tədris edən başqa universitetlərdən fərqləndirən əsas amil dil biliklərinin inkişafı üçün əlavə 2 fənnin (rus və ingilis dili) tədris olunmasıdır.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində sosial iş kurikulumlarını 2 növ və 3 kateqoriyaya ayırmaq mümkündür. Kurikulumlar ixtisas (24 fənn) və ümumi fənlərin ( 6 fənn) tədrisini əhatə edir. Kateqoriya əsasında təsnif etdikdə isə ixtisas inkişafı ilə əlaqədar 22 fənn, ixtisasla bağlı başqa bilik və bacarıqların inkişafı ilə əlaqədar 7 fənn var, peşə bacarıqlarının inkişafı üçün nəzərdə tutulan fənn sayı isə 1-dir. Fənlərarası müqayisəyə əsasən, ixtisas fənlərinin ümumi fənlərdən say etibarı ilə üstünlüyü, həmçinin kateqorik olaraq ixtisas inkişafı ilə əlaqədar fənlərin ixtisasla bağlı başqa bilik və bacarıqları inkişaf etdirən fənlərdən çox olduğu görünür. Qeyd etmək olar ki, ixtisas fənləri təqdim olunan kurikulumda ümumi fənlərin 4 misli miqdarındadır.

Bakı Dövlət Universitetində sosial iş üzrə tədris növ və kateqoriya üzrə bolünüb. Ümumilikdə kurikulumlar 42 fənni özündə birləşdirir. Növ üzrə təsnifat apararkən 26 ixtisas fənni, 15 ümumi fənn, 1 təcrübə əsaslı fənn keçirildiyi görünür. Sosial iş kurikulumlarının kateqoriya əsaslı təsnifatında ixtisas inkişafı ilə bağlı 26, ixtisasla bağlı başqa bilik və bacarıqların inkişaf etdirilməsi ilə əlaqədar 12, təhsil siyasəti baxımından zəruri bilinən 3, ixtisasla bağlı təcrübə əsaslı öyrənmə üzrə 1 fənnin tədrisi aparılır. Başqa universitetlərdə sosial iş kurikulumlarının tədrisini müqayisə edərkən Bakı Dövlət Universitetində peşə bacarıqlarını inkişaf etdirmək üçün nəzərdə tutulan fənlərin olmadığı görünür. Həmçinin təcrübə əsaslı tədris vahidlərinin sayının az olması, bu universitetdə sosial işin təcrübə əsasında öyrənilməsinə o qədər üstünlük verilmədiyini göstərir.

Azərbaycan Dövlət Pedaqoji Universitetində sosial iş kurikulumları üzrə növ və kateqoriya əsaslı bölgü nəticəsində ümumilikdə 23 fənn tədris olunur. Sosial iş kurikulumlarının növ üzrə

bölgüsündə ixtisas üzrə 14, ümumi fənn üzrə nəzərdə tutulan fənlərin sayı 9-dur. Kateqoriyalaşdırarkən ixtisas inkişafı ilə bağlı 13, ixtisasla bağlı başqa bilik və bacarıqların inkişaf etdirilməsi ilə əlaqədar 8, təhsil siyasəti baxımından zəruri bilinən 1, peşə bacarıqlarını inkişaf etdirmək üçün 1 fənnin tədrisi aparılır. Azərbaycan Dövlət Pedaqoji Universitetində sosial iş üzrə tədris olunan fənlərin (bakalavr) yetərincə az, ixtisas üzrə fənlərin isə başqa qeyri-ixtisas fənlərindən çox olduğu müşahidə edilir.

Amerika Birləşmiş Ştatlarında Şərqi İllinoys, Vaşınqton, Pitsburq universitetlərində sosial iş kurikulumları tədris olunur.

Şərqi İllinoys Universitetində sosial iş kurikulumları 5 növ və 4 kateqoriya üzrə ayrılıb. Növ olaraq ixtisas yönümlü 10 fənn, ümumi 4 fənn, ümumi seçmə bacarıqları üzrə 8, ümumi seçmə üzrə 10 fənn və təcrübə əsaslı 4 fənn tədris olunur. Kateqoriya əsaslı ixtisas inkişafı ilə bağlı 24, ixtisasla bağlı başqa bilik və bacarıqların inkişaf etdirilməsi ilə əlaqədar 4, peşə bacarıqlarının inkişafı üçün 1, ixtisasla bağlı təcrübə əsaslı öyrənmə üzrə 7 fənn tədris olunur. Statistik göstəricilərə diqqət yetirsək, növ üzrə seçmə fənlərə üstünlük verildiyi müşahidə edilir. Fənlərarası müqayisə zamanı təcrübə əsaslı fənlərə başqa universitetlərdən fərqli olaraq Şərqi İllinoys Universitetində daha çox üstünlük verildiyi aydın görünür, yəni fənlər daha çox təcrübə əsasında tədris olunur. Bu universitetdə başqa fərqləndirici amil isə ümumi seçmə bacarıqlara yer verilməsi ilə bağlıdır.

Vaşinqton Universiteti sosial iş kurikulumları üzrə fənlərin növlər üzrə bölgüsü əsasında 11 ixtisas, təcrübə ilə bağlı 7 fənn tədris olunur. Kateqoriya əsasında böldüyümüz zaman ixtisas inkişafı ilə bağlı 11, peşə bacarıqlarını inkişaf etdirmək üçün 1, ixtisasla bağlı təcrübə əsaslı öyrənmnə üzrə 6 fənn tədris olunur. Vaşinqton Universitetində sosial iş üzrə ümumi fənlərin tədrisi aparılmır. Növ üzrə bölünmə başqa universitetlərdən fərqli olaraq azdır, tələbələr üçün seçmə fənlər nəzərdə tutulmayıb.

Pitsburq Universitetində sosial iş kurikulumlarını nəzərdən keçirdiyimiz zaman ixtisas növü üzrə 8, ümumi seçmə fənn üzrə 5 və təcrübə əsaslı 5 fənnin tədrisi aparılır. Kateqoriyalaşdırdığımızda ixtisas inkişafı ilə bağlı 14, ixtisasla bağlı təcrübə əsaslı öyrənmə üzrə 4 fənnin keçirildiyi görünür. Pitsburq Universiteti sosial iş təhsilində ümumi fənlərin və peşə bacarıqlarını inkişaf etdirmək üçün fənlərin tədrisinin həyata keçirilmədiyini aydın şəkildə görə bilirik. Yuxarıda adı çəkilən başqa 2 universitetlə müqayisədə ən az təcrübə əsaslı öyrənmə fənlər Pitsburqda tədris olunur.

# 3. MÖVCUD OLAN ÇATIŞMAZLIQLAR VƏ TÖVSİYƏLƏR

Azərbaycanda universitetlərdə bakalavr üzrə sosial iş, əsasən, nəzəri olaraq keçilir. Lakin biz sosial işin tarixinə nəzər yetirsək, görərik ki, sosial iş ixtisası praktikadan nəzəriyyəyə keçən bir ixtisas olub. Belə ki, qədim dövrlərdən sosial iş filantropiya (xeyriyyəçilik) adıyla üzə çıxıb (Gladden, Jessica Lyn, 2018), orta əsrlərdə isə kilsələr kimsəsiz insanları müdafiə edən sığınacaq rolunu oynayıb (Tippy, W. M., 1923). Daha sonra peşə standartları və normalar formalaşıb və zamanla sosial işin təcrübəsindən əlavə nəzəri əsasları da yaranıb. Yəni sosial iş praktiki ixtisasdır, lakin Azərbaycanda əksər universitetlərdə sosial iş üzrə yalnız IV kursda tələbələri praktikaya göndərirlər. Azərbaycanda sosial işin tədrisini inkişaf etdirmək üçün aşağıdakı tövsiyələri irəli sürmək mümkündür:

1. **Keyfiyyətli təcrübi təhsilin miqyasını genişləndirmək:** Nəzərə aldıqda ki sosial işin keyfiyyətli tədrisi üçün təcrübi təhsil çox əhəmiyyətlidir, bu tip təhsilin mənalı həyata keçirilməsi üçün mümkün bütün vasitələrdən yararlanmaq zərurəti yaranır. Belə ki, keyfiyyətli təcrübi tədrisin təmin olunması üçün tələbələrin müxtəlif səhiyyə və sosial xidmət müəssisələrinə intensiv çıxışı təmin edilməli, "sinif otağı" ilə "təcrübə məkanı" arasında sərt sərhədlər qoyulmamalıdır.

2. **İnteraktiv öyrənməni təşviq etmək:** Sosial iş bir nizam-intizam məsələsi olaraq daim genişləndiyindən və müxtəlif təcrübələrə açıq olduğundan didaktik prinsipləri pozmadan tədris mühiti mümkün səviyyədə interaktivləşdirilməlidir.

3. **Təhsil metodologiyasının inkişafı üçün ardıcıl tədqiqat və konfransların keçirilməsi:** Azərbaycanda sosial iş sahəsinin daimi inkişafını təmin etmək üçün təhsil metodologiyasının sübut əsaslı tapıntılar və müzakirələr əsasında dayanıqlı, davamlı inkişafı və bu xüsusda yerli həssaslıqlar nəzərə alınmalıdır.

# 4. ƏDƏBİYYAT SİYAHISI

UAFA (2018). *Azərbaycanda sosial işin təşkili,* uafa.az, http://uafa.az/ngo/az%C9%99rbaycanda-sosial-isin-t%C9%99skili/ Əldə edildi: 17 May 2022

Gladden, Jessica Lyn (2018). *Social Work Leaders Through History*, Springer Publishing Company, səh. 10, https://connect.springerpub.com/content/book/978-0-8261-4645-8/chapter/ch01

Tippy, W. M. (1923). The Field of the Church in Social Work and Public Welfare. *The Annals of the American Academy of Political and Social Science*, *105*, 64–70. http://www.jstor.org/stable/1015167

Sənəd Demokratik Təşəbbüslər İnstitutunun (IDI) apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhfə verən hər kəsə dərin təşəkkürünü bildirir.

Məlumatlardan istifadə edərkən IDI-yə istinad etmək zəruridir.

Əlaqə məlumatları:

Tel: +99450 435 95 42

Web: www.idi-aze.org

E- poçt: info@idi-aze.org

Facebook: www.facebook.com/DTI.IDI